**Süjeti seçin.** Mənbənin verdiyi xəbərlər a) bir-biri ilə əlaqəli ola da bilər, olmaya da bilər, b) fərqli süjetlərə aid ola bilər. Bir mətndə ancaq bir xəbər və bir süjet vermək olar. Auditoriyaya çatdırmaq istədiyiniz xəbəri indi seçin.

[V] Ağsaqqallar şurasının sədri «Gənc kosmonavtlar» dərnəyinin *bərpasını təklif edib*.

**Süjet №1: «Uşaq dərnəyinin bərpası»** Bu xəbər aşağıdakı insanlara maraqlı gələ bilər:
1) onlar Nərimanabadda yaşayır, uşaqları var və uşaqlarını yaxşı bir dərnəyə göndərmək istəyir.
2) onlar bir zamanlar özləri bu dərnəyə gedib və dərnəklə bağlı nostalji yaşayır.
3) onlar bu dərnəyin rayon üçün vacib olduğunu düşünür.

*Bu süjetin əleyhinə işləyən hallar:*
1) Söhbət hələ ki, təklifdən gedir. Qərar qəbul edilməyib. Sadəcə icra başçısı dərnəyin bərpası barədə rəy verəcək işçi qrupu toplamaq göstərişi verib. Bu məsələnin elə ancaq müzakirə mərhələsində qalacağı şansı böyükdür. Xəbər bəhanəsi var, amma çox zəifdir.
2) Bu süjet nisbətən məhdud sayda insanları əhatə edir.

[X] İcra başçısı məişət tullantıları zavodunun tikiləcəyi yer barəsində hökumətin qərar verdiyini bildirib.

[XI] Hökumət məişət tullantıları zavodunun Məmmədli kəndində tikilməsi barədə qərar verib.

**Süjet №2 «Məişət tullantıları zavodu»** Arqumentlər:
1) Bu məsələ insanların sağlamlığı, qorxuları və mülkiyyətinə toxunur.
2) Göründüyü kimi, məsələ gərgin müzakirə mövzusudur, ictimai mübahisələr doğurur.

**Bu süjet daha əhəmiyyətlidir!**